X.A.ƏLİYEVA
baş müəllim
e-mail: x.samedova@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

:10.62021/0026-0028.2024.2.018

MƏTN DİLÇİLİYİN OBYEKTİ KİMİ

Xülasə. *Məqalədə dilin sintaktik sistemində mətnin yeri öyrənilir. Mətnin dil vahidi kimi formalaşmasında cümlələrin bir-biri ilə məntiqi əlaqəsi qeyd edilir. Mətn ayrı-ayrı cümlələrdən deyil, yalnız cümlələr qrupundan ibarət mürəkkəb sintaktik vahid olaraq qapalı struktura malikdir və bitmiş fikir ifadə edir. Mətn nitq vahidi olaraq cümləyə nisbətən yüksəkdə duran sintaktik vahiddir. Dil səviyyəsində mətn cümləyə münasibətdə struktur və semantik planlarda xüsusi mürəkkəblik nümayiş etdirir. Mürəkkəb sintaktik bütövün mətnyaradıcı struktur kimi sintaktik xüsusiyyətləri şərh edilir. Mürəkkəb sintaktik bütövün bir sıra qrammatik əlamətləri olduğu qeyd edilir və cümlələrin birliyi məna və üslubi əlamətlər üzrə ayrılır.*

Açar sözlər: *mətn, struktur, semantika, mürəkkəb sintaktik bütöv, cümlə*

Bir çox dilçilər mətnin sintaktik sistemdə yerinin müəyyənləşdirilməsi istiqamətində addımlar atmışlar. Bu sahədə konsepsiyaların əsasında həm dilin mahiyyət etibarilə xüsusiyyətlərinin, həm də onun fəaliyyət proseslərinin təhlili zamanı mətnin cümlə üzərində tam üstünlüyü prinsipi durur. Hətta dilin funksiyaları arasında mətn funksiyasını da ayırırlar və bu funksiya danışanın və yaxud yazanın mətn yaratmaq bacarığını nəzərdə tutur. Dilin mətn yaratmaq funksiyalarının yerinə yetirilməsində cümlənin funksional perspektivi hadisəsinin həlledici rol oynadığını qeyd etmək lazımdır. Bu, cümlənin informasiya ötürücüsü kimi təşkili ilə bağlıdır və cümlənin funksional perspektivində ötürücünün məna potensialının yer alması onun faktiki olaraq mətn yaradan dil komponenti kimi müəyyənləşdirilməsini şərtləndirir [1, s. 51; 4, s. 218].

Digər tərəfdən, dilçilər mətn tədqiqatları çərçivəsində konkret hadisələrin təhlili zamanı onların cümlə sintaksisində öyrənilməsinin vacibliyi qənaətinə gəlmiş və bunu bir sıra səbəblərlə, o cümlədən ayrı-ayrı cümlələrin mətn funksiyasını daşımaq bacarığı, yəni mətn hadisəsi rolunu oynaya bilmək, eləcə də bəzi mətnlərarası xüsusiyyətli münasibətlərin (məsələn, anaforik əlaqə) cümlə daxilində də mümkünlüyü ilə izah etmişlər.

Hər bil dil kateqoriyasının öz işləmə çərçivəsi var. "Aşağı" səviyyələrə aid dil kateqoriyalarını təşkil edən vahidlər kifayət qədər dəqiq müəyyən olunsalar da, "yuxarı" həddi müəyyənləşdirmək çətinliklər törədir. Mətn kateqoriyalarının cümlə hüdudlarını keçdiyini qəbul etsək, aydındır ki, bu kateqoriyaların dairəsinin genişləndirilməsi məsələsi ortaya çıxır və bu zaman onlardan ən mühümü kimi mətndaxili əlaqəlilik, mətnin funksional perspektivi, informasiyanın mətndə bölüşdürülməsi, mətnin üfüqi və şaquli stratifikasiyası kimi məsələlər də nəzərdən qaçırılmamalıdır.

Müxtəlif dillərin materialı əsasında frazafövqü birləşmələrin tədqiqi ilə məşğul olan dilçilər burada məhz bu birləşmələr üçün səciyyəvi olan və dil haqqında elm üçün böyük maraq doğuran bir çox xüsusiyyətlər üzə çıxarırlar. Dillərin ardıcıl olaraq öyrənilməsi nəticəsində həm problemin bütövlükdə nəzərdən keçirilməsinə, həm də onun ayrı-ayrı aspektlərinin təhlilinə həsr edilmiş əsərlərin sayı artmışdır. Belə ki, hələ bu vaxta qədər frazafövqü birləşmələrin xarakter va xüsusiyyətlərinə münasibətdə vahid bir fikir yoxdur. Bəzi müəlliflər, ümumiy-

yətlə, bu birləşmələrin ayrılmasına dair məsələnin qoyuluşunun özünü şübhə altına alaraq cümlədən artıq böyük vahidlərin mövcudluğunu inkar edirlər.

Cümlədən artıq böyük vahidlərin ayrılması əleyhdarları öz fikirlərini müxtəlif cür əsaslandırırlar. Onlardan bəziləri cümlənin inteqrant şəklində daha böyük vahidin tərkibinə daxil olmaq imkansızlığını cümlənin öz təbiəti ilə, onun xüsusiyyətləri ilə izah edirlər.

Cümləni bir çox dilçilər ən ali sintaktik vahid hesab etmir və dildə daha yüksək səviyyəli vahidlərin olması fikrini irəli sürərək bu vahidlərin öyrənilməsini linqvistikanın birinci dərəcəli vəzifəsi olduğunu vurğulayırlar. Cümlə başqa cümlələrdə davam və inkişaf etdirilə bilən fikir ifadə edə bilər. Belə cümlələrin toplusunu müstəqil sintaktik vahid kimi nəzərdən keçirmək mümkündür. Beləliklə, ayrıca bir cümlə nitqə çevrilə bilər. Bu ayrıca bir cümlədə qrammatik münasibətlər onların sonrakı nitqə çevrilmə prosesində ola bilməsinə görə mümkündür [9, s. 104]. Ayrıca bir cümlənin nitqə çevrilməsinin imkanı onunla şərtlənir ki, cümlədə kommunikasiya prosesində izah oluna bilən qrammatik münasibətlər implisit şəklində özünü göstərir. Cümlənin sərhədlərindən kənarda yeni kommunikativ vahidlər yaranır ki, onların da həcmi nitq prosesində implisit qrammatik münasibətlərin eksplikasiya imkanı ilə şərtlənmişdir.

Əlaqəli nitqdə ayrı-ayrı cümlələr deyil, yalnız cümlə qruplarından ibarət olan mətn qapalı sintaktik struktura malikdir. Məhz buna görə də cümlələrin belə qrupları monoloji nitqin real sintaktik vahidləri olur. Buna görə də müstəqil cümlələrin belə qrupları cümlə ilə müqayisədə daha yüksək dərəcəli sintaktik vahid kimi funksional planda nəzərdən keçirilir.

Mürəkkəb sintaktik bütöv onun sərhədlərini çərçivələyən formal göstəricilərə malikdir [7, s. 79]. Mürəkkəb sintaktik bütövün strukturunun sintaktik xüsusiyyətlərini öyrənərkən təhlil edilən istiqamətin nümayəndələri xüsusi bütöv vahid kimi onun strukturundan deyil, əslində, ayrı-ayrı cümlələrin strukturundan çıxış edirlər və deməli, frazafövqü vahidin əlamətlərini daha aşağı səviyyəli vahidin − cümlənin əlamətləri əsasında ayırıb çıxarırlar. Mürəkkəb sintaktik bütövün strukturunu öyrənməkdə olan belə bir yanaşma tərzi onun cümlənin strukturundan keyfiyyətcə fərqli olan xüsusiyyətlərini açmağa imkan vermir. Buna görə də mürəkkəb sintaktik bütövün xüsusi sintaktik vahid kimi götürülməsinə baxmayaraq, əslində, yalnız mətndə müxtəlif əlaqə vasitələrilə birləşmiş bir sıra cümlələrin birləşməsi kimi öyrənilir [8]. Bu vahidlərin ayrılmasına və onların əlamətlərinin təsvirinə olan məhz belə yanaşma üsulu, fikrimizcə, bir sıra linqvistilərə əsas verir ki, onlar frazafövqü vahidin cümlənin strukturlaşma qaydalarından keyfiyyətcə fərqlənən strukturlaşma qaydalarının bu vaxta qədər ayrılıb çıxarılmadığını və ifadə edilmədiyini və bu əsasda, ümumiyyətlə, frazafövqü vahidlərin ayrılmasının düzgünlüyünü inkar edildiyini təsdiq etsinlər.

Mətn nitq fəaliyyətinin digər kateqoriyaları kimi, məsələn, cümlə kimi sintaktik iyerarxik sistemə daxil olur. Başqa sözlə desək, digər linqvistik kateqoriyalarla onun arasında konkret qarşılıqlı münasibətlər zənciri qurulur. Əslində, mətn nitq vahidi olaraq özünü cümləyə nisbətən daha yüksəkdə duran sintaktik vahid kimi aparır. Çünki o, dil səviyyəsində cümləyə münasibətdə həm struktur, həm də semantik planlarda daha genişşaxəli mürəkkəblik nümayiş etdirir.

Məlumdur ki, mətnin ən azı iki cümlədən ibarət olması ideyası aparıcıdır. Çünki bir cümlə yalnız bir elementar predikativ məzmundan ibarət müəyyən bir bütövdür. Digər tərəfdən isə mətni yazıda fiksasiya olunmuş nitq əsəri kimi qəbul etsək, cümləni də mətn hesab etmək olar. Mətn haqqında cümlə üzərində struktur mənada üstünlük təşkil edən bir vahid kimi təsəvvürümüz bizim intuitiv, qeyri-elmi təsəvvürlərimizə söykənir. Cümləni struktur-semantik planda cilalanmış hesab etsək, buradan belə nəticəyə gəlmək olar ki, mətn cümlədən daha böyük bir vahiddir. Bunu mətnin aşağı sərhədləri haqqında mülahizələrin məntiqi hesab etmək olar. Mətnin yuxarı sərhədləri haqqında təsəvvürlər də təqribən bu cür qeyri-elmi səciyyə daşıyır. Əgər biz xüsusilə də ideya-tematik birlik nöqteyi-nəzərindən çıxış etsək, bu sərhədləri müəyyənləşdirmək çox çətindir.

Ayrı-ayrılıqda mətnlə digər sintaktik vahidlər arasında çox maraqlı bir qarşılıqlı münasibətlər sistemi formalaşır. Belə ki, cümlə öz-özlüyündə heç bir mənaya malik deyil və əgər digər elementlərdən təcrid edilmişsə, başa düşülə bilməz. Başqa sözlə, o yalnız mətn çərçivəsində konkret hadisə ilə bağlı öz mənasını əldə edir və faktiki virtual olaraq burada aktuallaşma qabiliyyətinə malik ola bilir. Mətn, öz növbəsində, açıq sinif təşkil edir və onun bu sinfə mənsub müxtəlif variantları yaranır. Beləliklə, mətn invariant rolunu oynayaraq dil modelləri olan cümlələrin nitq prosesində aktuallaşmasına kömək edir. Bu nitq prosesinin ən yüksək, real, praktik göstəricisi olan mətnin təsvir etdiyi reallıq və variasiyaların ən dəqiq mənzərəsini verir və özündən əvvəlki sintaktik reallıqların (vahidlərin), əslində, öz strukturundan çıxmasını təmin edir. Əslində, sintaktik törəmə ənənəsinə görə, cümlə və mürəkkəb cümlə mətni əmələ gətirmir. Əksinə, mətn ontoloji prinsipinə uyğun olaraq digər sintaktik vahidləri formalaşdırır.

Ənənəvi olaraq mətnin öyrənilməsi, əsasən, iki üsulla aparılır. Birinci üsul propozisional üsuldur. Bu üsul, mətnin parametrlərinə əsasən, cümlənin artıq müəyyən olunmuş xüsusiyyətlərini tətbiq edir (üsulun adı buradandır − propozisional). Bu cür ekstrapolyasiyanın, sözsüz, müsbət nəticələri ola bilər. Xüsusilə mətnin dilçilik statusunun möhkəm zəmininin qoyulması üçün, eləcə də mətn problemlərinin dilçiliyə aid edilməsini nəzərə çarpdırmaq üçün ona "aşağı səviyyədən, cümlədən" yanaşmaq lazımdır.

İkinci üsul kommunikativ üsuldur. Bu üsul mətnin öyrənilməsini, onun immanent xüsusiyyətlərinin homogen sintaktik strukturlara müraciət etmədən ayrılmasını nəzərdə tutur. Belə üsul və ya yanaşma mətnin spesifik xüsusiyyətlərinin bütöv obyekt kimi dəqiq differensiasiyasını şərtləndirir.

Mətn dilçiliyi sahəsində tədqiqatlar, əsasən, iki istiqamətdə aparılır. Bir tərəfdən, təhlil, ümumiyyətlə, mətnin formalaşmasının ümumi qanunauyğunluqlarının üzə çıxarılması baxımından tekstemanın tədqiqi, eləcə də tekstemanın aktual reallaşmasının öyrənilməsi sahəsində aparılır. Başqa sözlə, söhbət bədii, publisistik və ya elmi üslubda olan bu və ya başqa konkret bütöv dil parçasının müəyyən olunması istiqamətində aparılan tədqiqatdan gedir. Eyni zamanda, mətnin sərhədlərinin təyin olunmasında istifadə olunan prinsiplərin, meyarların, mətnin modellərinin və növlərinin ayrılması imkanları ətrafında elmi mübahisələr aparılır. Bizə belə gəlir ki, təqdim edilən bu iki tədqiqat aspektlərini bir-birini tamamlayan iki yanaşma kimi nəzərdən keçirmək lazımdır.

Dilçilikdə mətnə hazır məhsul, nitq-əqli prosesin nəticəsi kimi baxılır. "Mətn" termininin bir neçə işlənmə variantları var. Bir tərəfdən, "mətn" anlayışı danışanın fikrinə əsasən, özlərində bitmiş mənanı ehtiva edən bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir parçanı təyin etmək üçün işlənir. Digər tərəfdən isə, bu terminlə hekayə, roman, məqalə və s. kimi nitq əsərləri adlandırırlar. Ümumi qəbul olunan isə yalnız mətnin bir sıra vahidlərdən ibarət və əlaqəlilik, bitkinlik və daxili təşkil olunma təzahürlərinə malik spesifik bir quruluş kimi başa düşülməsidir. Mətnin daxili və xarici tamlığını təşkil edən linqvistik, psixoloji və məntiqi amillər var. Linqvistik təkrarlar, formal əlamətlər, fikrin inkişafı tema, rema və proses kimi antisipasiya və resipasiya bu amillərdəndir. Məsələn, H.Vaynrix mətni aşağıdakı kimi nəzərdən keçirir: "Mətn minimum iki morfemdən, maksimal tərkibi isə məhdud olan morfemlərin qaydalı ardıcıllığı olaraq leksik və funksio-nal morfemlərin mütəmadi növbələşməsidir" [5].

M.A.K.Hallidey və R.Həsən mətnə bu cür tərif verirlər: "Mətn şifahi və yaxud yazılı, istənilən uzunluqda bir bütöv təşkil edən danışıq parçasıdır" [3, s. 341].

Bu istiqamətdə sonrakı tədqiqatlar müxtəlif tipli mətnlərə daha differensial yanaşmaya gətirib çıxarmışdır. Belə ki, artıq mətnin sərhədlərinin kifayət qədər dəyişkən və onun bir söyləmdən çoxcildli əsərlərə qədər müxtəlif həcmdən ibarət olduğu qəbul olunur. Məsələn, L.R.Qalperin mətnə aşağıdakı tərifi verir: "Başlığa, müəyyən məqsədyönlülüyə və praqmatik mərama malik leksik, qrammatik, məntiqi, üslubi əlaqələrin müxtəlif vasitəsilə birləşmiş bir sıra xüsusi vahidlər (frazafövqi birliklər) ilə birgə bitmiş və ədəbi işlənmiş nitq məhsulunu təşkil edən dil işarələrinin qaydalı və yazılı birliyi − mətndir" [6, s. 18].

Prinsip etibarilə mətnın bu cür dəyərləndirilməsi O.İ.Moskalskayanın mətn bölgüsü ilə üst-üstə düşür: 1) bütöv nitq əsəri-mətn, yəni sözün geniş mənasında mətn və yaxud makromətn və 2) frazafövqi birlik (mürəkkəb sintaktik bütöv) sözün dar mənasında mətn və yaxud mikromətn [9].

Nəhayət, N.Enkvist mətnə ən ümumidən ən spesifikə qədər dörd tərifin verildiyini bildirir və onları aşağıdakı kimi göstərir: 1) Mətn mənalı işarələrdən ibarət olan ardıcıllıqdır; 2) Mətn mənalı işarələrin ardıcıllığıdır; 3) Mətn təbii dildə mənalı işarələrdən ibarət olan ardıcıllıqdır; 4) Mətn təbii dildə mənalı işarələrin ardıcıllığıdır [2].

Bununla belə, mətnin dəqiq tərifi, onun sərhədlərinin müəyyən olunması, mətnin hissələrə bölünməsi üsulları, onu təşkil edən vahidlərin statusunun müəyyən olunması, onun yaradılmasında iştirak edən semantik və formal amillərin nisbəti kimi problemlər isə hələ də mübahisələrə səbəb olur.

Bütün bunlar belə bir **nəticəyə gətirir ki**, mətn nitq vahidi olaraq özünü cümləyə nisbətən daha yüksəkdə duran sintaktik vahid kimi aparır. Mətn dil səviyyəsində cümlə ilə münasibətdə həm struktur, həm də semantik baxımdan mürəkkəbliyə malik olduğunu nümayiş etdirir. Mətnin semantik strukturunun təhlili dil vahidlərinin bu və ya digər kontekstdə işlənmə xüsusiyyətlərini göstərir.

Ədəbiyyat

1. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər / K.M.Abdullayev, A.Y.Məmmədov, M.M.Musayev [və b.]. – Bakı: Mütərcim, 2012. – 608 s.
2. Enkvist, N.E. From Text to Interpretability: A Contribution to the Discussion of Basic Terms in Text linguistics. Connexity and Coherence: Analysis of Text and Discourse Ed. By W.Heydrich. Berlin, New York: Mouton de Gruyter, 1989, − pp. 369-382.
3. Halliday, M.A.K., Hasan R. Linguistic Function and Literary Style: An enquiry into the language of William Golding's “The Inheritors”. “Literary Style: a Symposium”. Ed. by Seymour Chatman, −London-New York: Oxford University Press, − 1971, − pp. 330-368.
4. Hartman P. Texte als linguistisches Objekt – München: Beiträge zur Linguistik, − 1971. − s. 216-224.
5. Weinrich, H. The textual function of the French article − In:S.Chatman, − 1971.
6. Гальперин, И.Р. Текст как объект лингвистического исследования. − Москва: Наука, − 1981.
7. Малычева, Н.В. Текст и сложное синтаксическое целое: системно-функциональный анализ / Н.В.Малычева. − Ростов-на-Дону: АПСН, − 2003. − 180 с.
8. Мамедов, Н.Ш. Текст и языковая коммуникация. Учебное пособие / Н.Ш.Мамедов. – Баку: Мутарджим, −2019. –252 с.
9. Москальская, О.И. Грамматика текста / О.И.Москальская. – Москва: Высшая школа, − 1981. – 183 с.

Kh.A.Aliyeva

Text as an Object of Linguistics

Summary

The article examines the place of text in the syntactic system of language. The logical connection of sentences in the formation of a text as a linguistic unit is noted. A text is not individual sentences, but consists of a group of sentences, being a complex syntactic unit and having a closed structure, it expresses a complete thought. A text as a syntactic unit stands above the sentence. At the language level, a text, compared to the sentence, demonstrates particular complexity in structural and semantic terms. The syntactic features of a complex syntactic whole as a text-forming structure are highlighted. It is emphasized that a complex syntactic whole has a number of grammatical properties and the semantic and stylistic features of combining sentences are revealed.

Key words: *text, structure, semantics, complex syntactic whole, sentence*

Х.А.Алиева

Текст как объект лингвистики

Резюме

В статье рассматривается место текста в синтаксической системе языка. Отмечается логическая связь предложений в формировании текста как языковой единицы. Текст представляет собой не отдельные предложения, а состоит из группы предложений, являясь сложной синтаксической единицей и обладая замкнутой структурой, выражает законченную мысль. Текст как синтаксическая единица стоит выше предложения. На уровне языка текст по сравнению с предложением в структурном и семантическом планах демонстрирует особую сложность. Освещаются синтаксические особенности сложного синтаксического целого как текстообразующей структуры. Подчеркивается, что сложному синтаксическому целому присущи ряд грамматических свойств и выявляются смысловые и стилистические особенности соединения предложений.

Ключевые слова: *текст, структура, семантика, сложное синтаксическое целое, предложение*

Rəyçi: dos. F.H.Səlimova

Redaksiyaya daxil olub: 15.05.2024